

# Qürur və inam günü

**1988-ci ildə başlanan Qarabağ hadisələri və erməni millətçilərinin "dənizdən dənizə Ermənistan" kimi sərsəm ideyaları nəticəsində Azərbaycan torpaqlarının bir hissəsi işğal edildi, kəndlər və şəhərlər dağıdıldı, minlərlə günahsız insan həlak oldu, yüz minlərlə azərbaycanlı öz tarixi torpaqlarından didərgin düşdü. Bu işğal nəticəsində Azərbaycanın iqtisadi və mədəni irsinə ağır zərbə vuruldu, bir milyondan çox insan 30 ilə yaxın qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur qaldı.**

İşğal dövrü həm də beynəlxalq hüququn səmərəsizliyini nümayiş etdirdi, çünki BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən dərhal çıxarılmasını tələb edən qətnamələri icra olunmadı, ATƏT-in Minsk qrupu isə münaqişəni həll etmək əvəzinə onu dondurulmuş vəziyyətdə saxladı.

Bu reallıq fonunda Azərbaycan dövləti üçün əsas prioritet işğal altındakı torpaqların azad edilməsi və bayrağımızın bütün suveren ərazilərimizdə və sərhədlərimizdə dalğalanması oldu. Azərbaycan Prezidenti cənab İlham Əliyevin 2003-cü ildən etibarən yürütməyə başladığı məqsədyönlü və prinsipial siyasət dövlətin hərbi, diplomatik və iqtisadi qüdrətinin paralel şəkildə artırılmasına yönəldi. Ordu quruculuğu dövlət siyasətinin əsas istiqamətinə çevrildi, büdcədə hərbi xərclərin payı ilbəil artırıldı, ordunun döyüş qabiliyyəti yüksəldildi, yeni silah və texnikalar alındı, eyni zamanda Azərbaycanda hərbi sənaye kompleksinin formalaşması sayəsində yerli istehsal gücləndi.

İqtisadi və diplomatik müstəvidə də Azərbaycan öz mövqelərini gücləndirirdi. Ermənistanın təcrid olunduğu regional layihələr fonunda Azərbaycan transmilli enerji və nəqliyyat layihələri ilə regionun siyasi-iqtisadi xəritəsini yenidən formalaşdırdı. Bakı-Tbilisi-Ceyhan, TANAP, Bakı-Tbilisi-Qars kimi layihələr yalnız iqtisadi deyil, eyni zamanda geosiyasi güc rıçağına çevrildi. Beynəlxalq təşkilatlarla çoxşaxəli əməkdaşlıq və balanslı diplomatiya Azərbaycanın beynəlxalq nüfuzunu artırdı. Azərbaycanın müstəqil siyasəti BMT, Avropa Şurası, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi qurumlarda dəstək qazandı və bu, gələcək qələbənin diplomatik zəmini oldu.

Uzun illər ərzində aparılan məqsədyönlü siyasət, iqtisadi sabitlik və ordu quruculuğu 2020-ci ildə öz nəticəsini verdi. 27 sentyabr 2020-ci ildə Ermənistanın növbəti təxribatına cavab olaraq Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə əks-hücum əməliyyatına başladı. "Dəmir yumruq" adlanan bu əməliyyat müasir hərbi texnologiyanın, dəqiq taktiki planlamanın və milli həmrəyliyin sintezini nümayiş etdirdi. 44 gün ərzində Azərbaycan Ordusu hər gün irəlilədi, hər gün yeni qəsəbə, kənd və strateji yüksəkliklər azad edildi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Hadrut və nəhayət, Şuşa şəhərinin azad edilməsi Azərbaycan tarixində dönüş nöqtəsinə çevrildi. Orduda bir nəfər də fərari qeydə alınmadı; yaralı əsgərlər yenidən döyüşlərə qayıtmaq üçün həkimlərdən xahiş edirdilər. Bu, xalqın yüksək mənəvi keyfiyyətlərinin və milli həmrəyliyin göstəricisi idi.

Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan, Rusiya və Ermənistan rəhbərləri tərəfindən imzalanan üçtərəfli Bəyanatla Ermənistan kapitulyasiyanı qəbul etməli oldu. Ağdam, Kəlbəcər və Laçın rayonlarının döyüşsüz təhvil verilməsi Azərbaycanın diplomatik və hərbi balansı qorumaq bacarığını göstərdi. Qələbə ilə nəticələnən 44 günlük Vətən müharibəsi XXI əsrin müasir döyüş konsepsiyalarını ortaya qoydu. PUA-ların, kəşfiyyat və artilleriyanın koordinasiyası, informasiya texnologiyalarının istifadəsi Azərbaycan Ordusunu dünyanın hərbi akademiyalarında öyrənilən nümunəyə çevirdi. Qərb analitik mərkəzlərində bu müharibə "yeni nəsil əməliyyatlar"ın simvolu kimi dəyərləndirildi.

Qələbədən sonra Azərbaycanın qarşısında duran əsas vəzifə azad edilmiş ərazilərdə dövlət suverenliyinin möhkəmləndirilməsi, bərpa-quruculuq işlərinin aparılması və sosial ədalətin təmin olunması idi. Prezident İlham Əliyev tərəfindən Zəfərin əbədiləşdirilməsi məqsədilə "Zəfər" və "Qarabağ" ordenləri, onlarla medal təsis olundu, 8 Noyabr Zəfər Günü kimi təsdiqləndi. Bakıda Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər Muzeyinin inşasına başlanıldı. 2024-cü il noyabrın 8-də Zəfər Parkının açılışı oldu. Parkda inşa edilən 44 metrlik Zəfər tağı qələbənin simvolunu əks etdirir.

2020-ci ilin dekabrında keçirilən Zəfər paradı, həmçinin Hərbi Qənimətlər Parkının yaradılması qələbənin canlı salnaməsinə çevrildi. 5 hektarlıq ərazidə 300-dən çox eksponat, o cümlədən 150-dək ağır texnika, tanklar, döyüş maşınları, artilleriya qurğuları, zenit-raket kompleksləri, atıcı silahlar və nəqliyyat vasitələri sərgilənir. 2 mindən çox düşmən hərbi avtomobilinin nömrə nişanlarından hazırlanmış "Qarabağ Azərbaycandır!" kompozisiyası, dinc əhaliyə qarşı raket hücumlarının və digər müharibə cinayətlərinin izahı, hətta "İsgəndər-M" raketinin qalıqları burada təqdim olunur ki, bu da gələcək nəsillər üçün həm yaddaş, həm ibrət dərsidir.

2023-cü il sentyabrın 19-20-də keçirilmiş birgünlük lokal xarakterli antiterror əməliyyatı suverenliyimizin tam bərpasında həlledici mərhələ oldu. 15 oktyabr 2023-cü ildə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan bayrağını qaldırdı. Bununla suverenliyin həm hüquqi, həm əməli, həm də rəmzi ölçüləri tamamlandı.

Humanizm və ədalət prinsipləri Zəfər dövrünün sosial-siyasi xəttini də müəyyənləşdirdi. 2021-ci il 5 noyabr tarixli qərarla "Zəfər Günü münasibətilə amnistiya" elan olundu və 17267 şəxsə şamil edildi: onların 733-ü Vətən müharibəsi iştirakçısı, 837-si qadın, 65-i yetkinlik yaşına çatmayan idi; azadlıqdan məhrumetmə yerlərində 5971 məhkuma tətbiq olundu, azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş 8559 şəxs də amnistiyadan yararlandı. Bu qərar qalib dövlətin böyüklüyünü, reinteqrasiyaya və sosial barışa yönəlik yanaşmasını göstərdi.

Suverenliyin institusionallaşdırılması istiqamətində Dövlət Suverenliyi Gününün təsis edilməsi (20 sentyabr) Zəfər Gününü tamamlayan hüquqi-siyasi qərardır: bir tərəfdən ərazi bütövlüyünün bərpası, digər tərəfdən dövlət hakimiyyətinin tam bərqərar olması ardıcıllığı tərtib olundu və illik təqvimdə möhkəmləndirildi.

Qələbədən sonra başlanmış Böyük qayıdış prosesi Azərbaycanın yeni inkişaf mərhələsini formalaşdırdı. 2022-ci ildə qəbul olunan I Dövlət Proqramı çərçivəsində azad edilmiş ərazilərdə infrastrukturun bərpası, yaşayış məntəqələrinin tikintisi və iqtisadi fəaliyyətin reinteqrasiyası həyata keçirildi. 2025-ci ilin oktyabrına qədər 4826 ailədən ibarət 19 mindən çox vətəndaş doğma torpaqlara qayıdıb, Qarabağ Universiteti fəaliyyətə başlayıb, "DOST" mərkəzləri və "Smart DOST" məntəqələri açılıb, minlərlə insanın məşğulluğu təmin olunub, yüzlərlə ailə biznesi qurulub. Bu proses bərpa mərhələsini sosial-iqtisadi dirçəlişlə birləşdirərək regionda dayanıqlı məskunlaşmanın təməllərini möhkəmləndirir.

*8 Noyabr Zəfər Günü Azərbaycanın dövlətçilik tarixində yeni mərhələ açan hadisədir: Qətiyyətli Ali Baş Komandan, güclü ordu, məqsədyönlü siyasət, effektiv diplomatiya və milli birlik sayəsində qazanılan böyük tarixi Qələbə təkcə işğalın sonu deyil, həm də yeni inkişaf dövrünün başlanğıcı oldu. 8 noyabr hər azərbaycanlı üçün milli qürur, milli özünüdərk və gələcəyə inam günüdür. Çünki bu tarixdə Azərbaycan təkcə torpaqlarını deyil, həm də öz milli ləyaqətini, milli birliyini və gələcək nəsillər üçün güclü dövlət idealını bərpa etdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin sözləri ilə desək, "Azərbaycanın quruculuq missiyası başlanır - azad edilmiş torpaqlara həyat qayıdır və bu qayıdış qalıcıdır".*

**Vasif QAFAROV,**
***Milli Məclisin deputatı, tarix elmləri doktoru***

Azərbaycan. - 2025.- 9 noyabr (№ 240).- S.15.